# Fikir, düşüncə, söz azadlığı Azərbaycanın demokratik tərəqqisinin əsasıdır...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

**Fikir və söz azadlığı öz mahiyyətinə görə əsas insan hüquqlarından biridir. Onun vasitəsilə insanın təbiətcə ayrılmaz hissəsi olan ümumi azadlıq hüququ həyata keçirilir. Konstitusiyada və digər qanunlarda təsbit edilməsindən asılı olmayaraq, fikir, söz və məlumat azadlığı hər bir şəxsə məxsusdur.**



Bu azadlığın Konstitusiya səviyyəsində möhkəmləndirilməsi onun təminat və müdafiə öhdəliyinin dövlət tərəfindən tanınmasının göstəricisidir.

**Jurnalistlərin çiyninə düşən böyük məsuliyyət...**

Beləliklə, bir çox cəhətdən müxtəlif fikirlərin azad ifadə edilməsinin və ictimai müzakirənin məhsulu olan müasir təmsilçi demokratiyanın mövcudluğu birbaşa bu azadlığın təmin edilməsindən və qorunmasından asılıdır. Müasir demokratik dövlətlər fikir və söz azadlığının ən yüksək əhəmiyyətini dərk edir, onu Konstitusiya səviyyəsində təsbit edir. Azərbaycan bunun ən yaxşı nümunələrindən biridir.

Fikir və söz azadlığının yuxarıda qeyd olunan müsbət fövqəladə xarakteri onun həyata keçirilməsi sferasının dövlət tənzimlənməsi vektorunu müəyyən edir. Dövlətin siyasətinin istiqaməti onun hüquq və azadlıqların müdafiəsi və həyata keçirilməsini təmin etmək məsuliyyəti ilə müəyyən edilir. Belə bir vəzifə həm də vətəndaşların fikir və söz azadlığının həyata keçirilməsinə məhdudiyyətlərin qoyulması üçün əsasdır. Bu azadlıq çərçivəsində verilən, lakin Konstitusiya və hüquqi müdafiə ilə əhatə olunmayan müəyyən səlahiyyətlər, obyektlər, subyektlər var. Bütün bunlar informasiya əlçatanlığı və yayılması səviyyəsinin artması fonunda xüsusilə böyük önəm kəsb edir. İnformasiya sferasının insan həyatına, dövlətin və cəmiyyətin fəaliyyətinə maddi təsirinin gücləndirilməsi 20-ci əsrin ikinci yarısı və indiki əsrin əvvəllərində ictimai inkişafın xüsusiyyətlərindən birinə çevrilib. Bu, birincisi, kompüter texnologiyası və telekommunikasiya sahəsində elmi-texniki inqilab, informasiya ilə bağlı fəaliyyətin səmərəliliyini əhəmiyyətli dərəcədə artıran yeni nailiyyətlər, ikincisi, müasir sivilizasiyanın əsas dəyərləri kimi insan fəaliyyətinin informasiya sahəsində hüquq və azadlıqları ilə müəyyən edilir. İnsanın informasiya fəaliyyəti sahəsində hüquq və azadlıqlarının müdafiəsi, milli informasiya infrastrukturunun təkmilləşdirilməsi və onun dayanıqlı fəaliyyətinin təmin edilməsi cəmiyyətin maraqları sistemində mühüm yer tutur. Həqiqətin və ədalətin tanınması, söz və məlumat azadlığının aydınlığı, açıqlığı, ilk növbədə, cəmiyyətdə gedən bütün islahatlar və proseslərdə fikir və söz azadlığının nə dərəcədə təmin olunmasından asılıdır. Qeyd edildiyi kimi söz və fikir azadlığı bütün vətəndaşların hüququdur. Bu halda media azadlığı siyasi senzura, hədə-qorxu və ya hər hansı siyasi təzyiq olmadan azad tənqid etmək hüququnun həyata keçirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir. Belə azadlığın keyfiyyətcə nəticəsi olan jurnalist sözü əksər hallarda ictimai fikri kökündən dəyişməyə qadirdir. Jurnalistlərin çiyninə düşən məsuliyyət cəmiyyətdə aparılan bütün islahatların mövcud qanunvericiliyə, ictimai-siyasi və hüquqi savadlılığın tələblərinə uyğun olaraq mediada obyektiv işıqlandırılmasının zəruriliyini müəyyən edir.

**Medianın "dördüncü hakimiyyət"ə çevrilməsi söz və məlumat azadlığının təmin edilməsində müstəsna rol oynayır**

Söz və məlumat azadlığının təmin edilməsi, aparılan bütün islahatların və proseslərin aşkarlığı, aydınlığı əksər hallarda proseslərin media tərəfindən nə dərəcədə azad və demokratik işıqlandırılmasından asılıdır. Bu, bir daha təsdiq edir ki, medianın fəaliyyət azadlığı xüsusi əhəmiyyət kəsb edir.

Demokratiya idarəetmənin bütün mərhələlərində azadlıqdır. Söz və mətbuat azadlığı, cəmiyyətdə aparılan islahatların açıqlığını və aydınlığını təmin edən demokratik prinsiplər sözdə və kağız üzərində yox, praktik həyata daxil olmalı, cəmiyyətin keyfiyyətcə yenilənməsi və inkişafı üçün prioritet olmalıdır. Azərbaycanda məhz bu istiqamətdə mühüm addımlar atılır.

Ölkəmizdə söz, mətbuat, fikir azadlığı mahiyyətcə açıqlıq, aydınlıq, ədalət və demokratiya anlayışları ilə uzlaşır ki, bu da cəmiyyətdə aparılan bütün islahatların mahiyyətini dolğun şəkildə ortaya qoyur. Ölkə Konstitusiyası söz, mətbuat və fikir azadlığının təmin edilməsinə yönəlmiş əsas prinsipləri təsbit edir. Konstitusiyanın bütün maddələrində söz və məlumat, mətbuat, fikir, vicdan azadlığı kimi anlayışlardan istifadə olunmasa da, bu hüquqların təmin edilməsinə və qorunmasına xidmət edir. Kütləvi informasiya vasitələrinin cəmiyyətdə hüquqi statusunu təsbit edən Konstitusiya normaları söz və mətbuat, insan düşüncəsinin azadlığının bilavasitə təmin edilməsinə yönəlib. Azərbaycanda səmərəli söz və mətbuat azadlığının təmin edilməsi, medianın "dördüncü hakimiyyət"ə çevrilməsi ilə bağlı bütün islahatlar və proseslər sözün tam mənasında demokratik prinsipə əsaslanır. İnsan və vətəndaşların informasiya, şəxsi azadlıq, şərəf və ləyaqətinin, şəxsiyyətin və cəmiyyətin mənəviyyatının qorunması sahəsində həyata keçirilən Konstitusiya hüquq və azadlıqları bu sahədə hüquqazidd hərəkətlərə qarşı mübarizədə qanunun tətbiqi təcrübəsi ilə dəstəklənir. Aydındır ki, demokratik proseslərin dərinləşməsi, media azadlığının təmin edilməsi insanların öz fikir və mülahizələrinin, onların ətrafda baş verən hadisələrə münasibətinin, baxışlarının azad ifadəsi platformasına çevrilməlidir. Bu mənada ötən illər ərzində söz azadlığının təmin edilməsinə yönəlmiş geniş spektrli təşkilati-hüquqi tədbirlər Azərbaycanda daha geniş vüsət qlıb. Ölkədə informasiya sahəsində baş vermiş dəyişikliklər real həyat nümunələri əsasında müəyyən edilib. Söz və məlumat azadlığının hüquqi tənzimlənməsi sisteminin yaradılması təcrübəsinin ümumiləşdirilməsi və bu sahədə yaranan problemlərin elmi-praktik tədqiqi Azərbaycanda vətəndaş cəmiyyətinin qurulmasında, söz və məlumat azadlığının hüquqi təminatında böyük rol oynayır. Bunlar fonunda o da mühüm məqamdır ki, Azərbaycanın müasir inkişafı vektoru onun sənaye cəmiyyətindən elmi bilik və məlumatların ictimai həyatın müəyyənedici amilinə çevrildiyi informasiya cəmiyyətinə tədricən keçidini nəzərdə tutur. İnkişafı informasiyaya əsaslanan innovativ cəmiyyətin yaradılması ölkənin inkişafı üçün strateji istiqamətdir.

Cəmiyyət həyatının genişmiqyaslı modernləşdirilməsi, onun internet kimi informasiya-kommunikasiya vasitələrindən istifadə etməklə innovativ inkişaf yoluna keçirilməsi dövlətdən baş verən dəyişikliklərə hüquqi dəstək göstərməyi, o cümlədən lazımi müdafiəni tələb edir. Azərbaycan bu istiqamətdə müvafiq addımlar atmaqla, demokratik tərəqqisini daha dinamik hala gətirir.

*Ramil QULİYEV*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**